QARAQAN

# BİR MİLYON DOLLARIM OLSAYDI...

QANUN NƏŞRİYYATI

**Qaraqan BİR MİLYON DOLLARIM OLSAYDI...**

Janr: roman
Yaş qrupu: 16+
Ölçü: 130x200 mm
Cild: yumşaq
Səhifə sayı: 200

| | |
|---|---|
| Naşir: | Şahbaz Xuduoğlu |
| Mətn dizaynı: | Rahilə Şamil |
| Qapaq dizaynı: | Rafael Qasım |
| Texniki redaktor: | Anar Əli |

Qanun Nəşriyyatı
Bakı, AZ 1102, Tbilisi pr., 76
Tel: (+994 12) 431-16-62; 431-38-18
Mobil: (+994 55) 212 42 37
e-mail: info@qanun.az
www.qanun.az
www.fb.com/Qanunpublishing
www.instagram.com/Qanunpublishing

ISBN 978-9952-38-500-7

© Qanun Nəşriyyatı, 2014; 2024: 2026

Qaraqanın "Bir milyon dollarım olsaydı..." adlı romanı kasıb və namuslu mətbəə işçisi – Kərəmin həyatından bəhs edir. Qazandığı cüzi maaşı həyat yoldaşına və övladlarına xərcləyən qəhrəmanın həyatını təsadüfən tikintidən tapdığı bir milyon dollar necə dəyişir? O, namuslu və dəyişilməyən insan obrazı kimi bu hadisədən sonra başına gələnlərlə mübarizə aparır. Pul hər zaman xoşbəxtlik gətirirmi?..

"Bir milyon dollarım olsaydı..." romanı müasir dövrün müxtəlif ailə-məişət problemlərinə işıq tutur.

Bakının boz küçələri ilə addımlayır və gecənin sükutunu pozmaqdan qorxaraq dabanını yavaşca yaş asfalta basırdı. Uzaqdan itlərin ulaşdığı kvartalların əks-sədası və çılpaq pərdələrdən süzülən az-maz işıqlar onu ehtiraslandırırdı. Yəqin indi o evlərdə ərsiz arvadlar onun kimi yoldan keçən piyadaları arzulayır, neçə illik tənhalıqlarını bir gecədə boğmaq istəyirdilər. Külək olmasa da, fevral şaxtası sümüklərinə kimi dolduğuna görə nazik plaşını qucaqlayıb addımlarını sürətləndirdi. Evinə hələ çox vardı, zəhrimar metro da bir saat əvvəl bağlanmışdı. Xalqlardan "Vosmoy" bazarına kimi cansıxıcı yolda ondan başqa heç kəs yox idi. Ac idi. Hər şeydən çox yemək barədə fikirləşirdi. Yəqin arvad uşaqların günortadan qalan artıqlarını bir qazana yığıb üstünə də bolluca su əndərib şorba bişirmişdi.

Son vaxtlar işi də yaxşı getmirdi. Müdirlə arası pozulmuşdu, o da gedib-gəlir, o boyda mətbəədə elə buna ilişirdi. "Kərəm Alıyev, Kərəm Alıyev!" Adam öz adını nə qədər eşidər? Bircə evə tez çatıb, o soyuq şorbanı bədənə vurub arvadının isti qucağına girəydi. Bircə arvadı da soruşmayaydı ki, bəs bu gün də maaş vermədilər?

Taksilər onun yanından keçəndə sürəti azaldır, sürücülər yoğun boyunlarını əyib gözlərini ona zilləyirdilər. O da üzünü çevirib minmək istəmədiyini bildirirdi. İndicə çatacaq, nə qalıb ki, beş addımlıq yoldur. Bu gün belə gec çıxmasının səbəbi ona əlavə tapşırıqların verilməsi idi. Dəvətnamələri bir daha çap maşınından çıxarmaq lazım idi. Bu maşının da dilini ancaq o bilirdi. Müasir və çoxdüyməli olduğu üçün yox, köhnə və sınıq-salxaq olduğu üçün. Dəfələrlə bu iri aparatın altına girib boşalmış vintlərini bərkidir, rəngini dəyişir, naqillərini sazlayırdı. İşə düşməmişdən bir də yoxlayır və düyməni basanda altdan çıxan dəmir həlqəni cəld hərəkətlə içəri itələyirdi. Bir neçə saniyəlik bu işi dəqiq və tez eləmək lazım idi. Köhnə maşın Kərəm Alıyevi it yiyəsini tanıyan kimi tanıyırdı. Kərəm də qoca maşının nasazlığına bir vaxtlar güclü olmuş, indisə qocalıb əldən düşmüş atasının həyasız xəstəlikləri kimi dözür, bacardıqca onun ömrünü uzatmağa çalışırdı. Kərəm bilirdi ki, bu köhnə çap maşını tam sıradan çıxanda onların ikisinin də mitilini bayıra atacaqlar. Əslində bu maşın Kərəmin elə özü idi. 1967-ci il SSRİ-də düzəldilmişdi, Kərəmlə yaşıd idi. Elə Kərəm də özünü ölmüş bir ölkənin vətəndaşı kimi hiss edirdi.

Yol uzandıqca arabir geri boylanır, taksilərin daha gəlmədiyi küçələrdə işdən evə qayıdan yorğun, ümidsiz bir taksist arayırdı. Amma yox... Beşcə addım qalıb, buna görə pul vermək nəyə gərək? İndicə çatacaq. Bir əli ilə cibindəki on manatı oynadırdı. Bu onun keçmiş maaşının son qalıqları idi. Üç gündü ki, maaş gecikirdi. Soyuducu da ovuc-ovuc boşalır, uşaqlar mələşirdi. Kərəmin bir oğlu vardı, bir

qızı. Gec evləndiyindən uşaqlar xırda idi, ibtidai məktəbi təzə bitirirdilər. Əslində Kərəm uşaqların böyüməsindən də qorxurdu. Qorxurdu ki, bir gün uşaqlar pulun nə olduğunu biləcəklər, onu da biləcəklər ki, atalarının pulu azdır, çox az. Ayda üç yüz manat alırdı, bu isə ailənin dolanmağına güclə çatırdı. Elə bil enən eskalatorda daim yuxarı qalxmağa cəhd göstərirsən. Qalxa bilmirsən təbii, amma aşağı da düşmürsən... Elə öz yerində sayırsan, anlayırsan ki, sən bir gün yorulacaqsan, amma eskalator yorulmayacaq. Son vaxtlar hər şey iki qat bahalaşmışdı. Yenə yaxşı ki, bu ay arvadı uşaqların məktəbində musiqi müəlliməsi kimi işə düzəlmiş, uşaqların dərsliklərini boynuna götürmüşdü. Nədə də bəxti gətirməsə, arvadında bəxti yaman gətirmişdi. Uşaqların anası yaraşıqlı xanım idi və necə olurdusa illər ötdükcə xanımı daha da gözəlləşirdi. Həm də çox ehtiraslı idi. Bəlkə də onların ən işıqlı anları qaranlıq otaqlarında keçirdi. Amma arvadın belə gözəlləşməsi onu bir tərəfdən də qorxudurdu. Kərəm bilirdi ki, arvadına baxırlar, hər yerdə – işdə, küçədə, binalarında, uşaqların valideyn iclasında. O bilirdi ki, sınıq çap maşınından asılı alicənab mühəndislər kimi, Bakıda insan dərisi geyinmiş, "Prado" sürən eşşəklər də çoxdur. O bilirdi ki, haram yollarla bu pulları qazanan o biqeyrətlər azyaşlı fahişələrdən və pozğun bar qızlarından bezəndə, onları yalnız namuslu, ərinə sadiq ev xanımları ehtiraslandırmağa başlayır.

Kərəm Alıyev yaxşı kişi idi. Ailəsini ağ günə çıxarmaq üçün əlindən gələn hər şeyi edirdi. Amma tale, tale onunla oynamaqdan yorulmurdu. Elə bu gecə də tale onunla oynayacaqdı, amma bu dəfə çox böyük hesabla. Bəlkə də bu

Kərəmin həyatında ən böyük və yaddaqalan oyun olacaqdı. Taksiyə verməyib cibində sıxdığı onluq ona daha böyük uduş vəd edirdi. Kaş biləydi cibindəki on manat bir azdan dəyərini necə itirəcək.

Mənə insanların xoşbəxtliyindən danış.
Sonra danışdıqlarına gül,
Güldüklərini ağla.
Utan və yalanlarını geri götür.

Kərəm "Onu" qarşısında görüb dondu. Sonra azca yaxınlaşıb ətrafa baxdı. Qəribədir... Çox qəribədir.

Köhnə məhəllənin ortasında ucalmış hündür, tam tikilməmiş binanın çılpaq betonları arasında qara çamadan. Bir də gördü ki, heç kəs yoxdu. Çamadana yaxınlaşıb ətrafına boylandı. Çox qəribədir... Sonra bir də ətrafa göz qoydu. Buradan evinə bircə kilometr yol qalmışdı. Kərəm bu həyəti yaxşı tanımırdı, sadəcə, kəsə olduğu üçün buradan keçirdi. İndi isə o yolu yox, yol onu kəsmişdi. Qəribədir... Saat iki. Gecənin bu vaxtı kimin çamadanı küçədə qala bilər? Çox qəribədir... Kərəm qırağa keçib bir də boylandı. Heç kəs yox idi, səssiz-səmirsiz tikinti meydanı. Ustalar hava qaralan kimi çıxıb gediblər, yaxınlıqda bir dənə də olsun ev yox, bina yox. Hamısı sökülmüş köhnə daxmalar, və bu hündür beton sütunlar. Kərəmin üşütməsi də keçmişdi, indi nə ev yadına düşürdü, nə isti şorba. "Qara kvadrat" kimi sirli çamadan indi onun üçün ən vacib məsələ idi. Yavaşca çamadana tərəf addımlayıb beton sütunların arasına keçdi. Burada adam nə gəzirdi? Sement, qum, daş... Sonra yaxın-

laşıb yenidən çamadanı götürmək istədi. Amma yox, bəlkə sahibi var, haradasa buradadı? Bir də ətrafa boylanıb yavaşca çağırdı "Eyy, çamadan yiyəsi..." Səsi beton sütunlara dəyib özünə qayıtdı. Görən yox idi, amma Kərəm bunu eləyə bilməzdi. Həm də nə bilir nə var içində? Bəlkə usta alətləridir? Bir də yaxınlaşıb əlini çamadana sürtdü. Hamar dəri səthin üstündə bir dənə də ləkə yox idi. Yox, usta hara, belə qəttəzə çamadan hara? "Eyy, kimsə məni eşidir? Mən sizin çamadanı tapmışam, eyy..." Sükut, tam sükut, qulaqbatıran qorxunc sükut. Kərəm bunu eləyə bilərdi? Çamadanı götürə bilərdi? Yox, çamadanın yiyəsi var. Yəqin, keçib o yana, sütunların dibində öz ehtiyacını ödəyir. Kərəm yalandan bəhanələr uydururdu. Sonra isə özü öz bəhanələrinə gülürdü. "Əgər kimsə işəyirsə, gedib yoxlayım da, burada çətin nə var ki?" Kərəm tez-tez sütunları keçib tikilinin o biri tərəfinə çıxdı. Boş çöllük, bircə nəfər yox, zülmət qaranlıq. Yenə qışqırdı: "Ey, çamadan tapmışam, cavab verən olmasa götürüb gedəcəm". Sonra çömbəlib yerdəki kərpiclərdən birinin üstündə oturdu. Şaxtadan dodaqları çatlamışdı. Qolundakı ucuz saatın əqrəbləri iki iyirmini göstərirdi. "Saat üçə kimi gözləyəcəm, heç kəs gəlməsə götürəcəm", – deyə öz-özünə pıçıldadı.

Bu çamadan usta çamadanına oxşamırdı. Güman ki, içində nəsə qiymətli bir şey olacaqdı. Elə çamadanın özünün də azı 40 manat dəyəri olardı. Bu pul isə toyuq qızartması, şokolad və meyvə şirəsi demək idi – üç gün azuqəsiz qalan uşaqların qarnı doyacaqdı. Kərəm əlini açıb, Allaha şükür oxudu. Doğrudan da tale hərdən insanın üzünə gülümsəyərmiş. Aman Allah, görəsən, çamadanda nə var? Bu

fikir bir yarım saat beynini gicişdirdi. Şaxta iynə kimi deşir, və əsməyə başlayan külək yerdəki sement tozunu göyə qaldırıb Bakının qar həsrətində olan asfaltının üzünə çırpırdı. Kərəm ayağa qalxıb daha böyük sahəni yoxlamaq fikrinə düşdü. O, bütün tikinti sahəsini gəzib-dolaşır, naməlum adamı axtarırdı. "Ay müəllim, ay qardaş, xanım, ay çamadan yiyəsi". Amma səs-səmir yox idi.

İndi o çamadanı rahatca götürüb gedə bilərdi, bir saatdan çoxdu heç kəs gəlmirdi. Çamadanın düymələrini açmaq istədi, amma yox... Olmaz. Hələ yox... " Yaxşısı onu əlimdə gəzdirim və bir az da buraları fırlanım".

Beləcə Kərəm daha bir saat əlində çamadan oraları fırlandı. Çamadan çox ağır deyildi. Amma hiss olunurdu ki, içindəki nədirsə çox kip oturub, o yan-bu yana diyirlənmir. Hərdən çamadanı aşağı-yuxarı silkələyib nə isə bir səs eşitmək ümidilə yenidən ətrafa boylanır və başqasının çamadanını silkələdiyinə görə utanıb yenidən qışqırırdı: "Eyy!!! Sizin çamadanı tapmışam".

O, deyəsən, xəstələnirdi. Burnu axmağa başlamışdı. Sinəsi də rahat deyildi. Bilmirdi ki, işdən evə kimi olan qırx dəqiqəlik yol iki saatdan çox uzanacaq. Əslində bəlkə də başqası bu çamadanı elə ilk addımda götürüb açardı, içindən də lazımlı şeyləri götürüb gedərdi. Amma Kərəm yox, o, belə adam deyildi. O, kommunist tərbiyəsi almışdı. Ömrü boyu ailəsinə və işinə sadiq olmuşdu. İçkinin, siqaretin nə olduğunu bilmirdi, mühəndisliyi də qırmızı diplomla bitirmişdi. Elə işinin alınmaması da özünün təmizliyindən idi. Heç kəsin ayağının altını qazan deyildi. Ondan nəsə öyrənmək istəyən olanda da texnikanın sirlərini canla-başla

yoldaşlarına ötürüb. Yoldaşlarının vəzifələri yavaş-yavaş yüksəldikcə o yenə də sevinib. Sadiq şagirdlər ilk müəllimini unutmadığı kimi iş yoldaşları da onu unutmayaydılar gərək. Amma heyif ki, həyatda hər şey kitablardakı kimi olmurdu. Həyat boz idi, iyrənc və ədalətsiz idi. Dünən onunla bir işləyən hansısa axmaq bu gün onun müdiri olurdu.

Kərəm ömründə bircə dəfə də rüşvət verməmişdi. Yox, elə bircə dəfə vermişdi, o da arvadı doğanda. Bircə onda rüşvət vermişdi. Onu da ürəkdən vermişdi. Çünki oğul atası olmaq onun üçün çox vacib məsələ idi. O inanırdı ki, nə vaxtsa diribaş oğlu onları bu bataqlıqdan çıxara biləcək. Kərəmin günahı yox idi. Sadəcə, sakit təbiətli insan idi. Həyasız deyildi, ikiüzlü ola bilmirdi, özünü gözə soxmağı bacarmırdı. Bəlkə də Avropada yaşasaydı intelligentliyinə və alicənablığına görə qədir-qiyməti də olardı. Amma Azərbaycan kimi böyük bazarda "Yol ver, yol ver!" qışqırmasan heç kəs çəkilən deyildi.

Saat dördün yarısını keçmişdi. İndi o, rahatca evə gedə bilərdi. Bir saniyəlik beynindən keçdi – "Bəlkə elə burada qoyum çamadanı. Nə olar, olar". Bu fikir necə tez yaranmışdısa eləcə də itib getdi. "Kərəm, əfəl olma, kim tapdığı qəniməti qoyar başqasına qismət olsun? Axı bu sənin qismətinə çıxıb? Niyə Allahın verdiyini qəbul eləmirsən?" Bu fikirlər onu ürəkləndirdi. Bir neçə dəfə də ətrafı dövr edib yavaş-yavaş evinə doğru addımladı. Amma hər addım atdıqca beynindəkilər onu dayanmağa vadar edirdi. "Bu dəqiqə gələcək yiyəsi, bax artıq gəlib, yəqin indi çamadanını axtarır. Kərəm, qayıt! Qayıt, yəqin sərxoş olub, indi ayılıb biləcək ki, çamadanı yoxdur. Belə olmaz, Kərəm".